Bəşər övladı özünü dərk etdiyi dövrdən bəri maddi ehtiyaclarını ödəmək məqsədilə zəhmətlərə qatlaşması ilə yanaşı, eyni zamanda mənəvi və ruhi aləminin zənginləşdirilməsi və daxili ehtiyaclarını təmin etmək üçün çalışmış, bu sahədə ilkin addımlarını atmağa səy göstərmişdir. İnsanlar ilkin dövrlərdə ən primitiv və bəsit vasitələrdən istifadə etməklə özlərinin həmin ehtiyaclarını təmin etməyə can atmışlar. Zaman-zaman bəlağətli sözün gözəlliyini, onun ifadə gücünü və təsir imkanlarını hiss edən insanlar nitqlərində daha gözəl ifadə vasitələrindən istifadəyə üstünlük vermişlər. Şərqdə sözə, musiqiyə və qafiyəyə olan maraq və gözəl söz söyləməyə üstünlük vermək nəticəsində ilk zamanlar ritmik ahəngi və nizamı hələ möhkəm olmayan qısa, qafiyəli nəsr hesab olunan səc forması meydana çıxmış, natiqlər qeyri-ixtiyari olaraq yüksək emosional, həyəcanlı və ekspressiv xütbələr söyləmək imkanı əldə etmişlər.

Özünün yüksək bəlağət və fəsahət imkanları, axıcılıq və harmoniyası ilə seçilən, daxili hiss və həyəcanları ifadə etmək imkanlarına malik olan səc forması Qurani-Kərimə də yol tapmış, Uca Yaradan sonuncu səmavi kitabında əmr və qadağalarını qullarına məhz bu forma vasitəsilə bildirməyə üstünlük vermişdir.

Məhz belə bir ifadə tərzi vasitəsilə əmək mahnıları, nəğmələr və s. folklor nümunələri meydana çıxmışdır. Sonralar daha da inkişaf edən səc sadə metrik formaların meydana gəlməsinə səbəb olmuşdur. Belə bir formadan Şərqdə daha çox bədahətən söz demək, kollektiv şəkildə çalışanları həvəsləndirmək məqsədilə istifadə olunmuşdur.

Söz və musiqinin qarşılıqlı əlaqəsi, onların hər ikisinin insan ruhunun paklanması, daxili aləminin gözəlləşməsinə olan təsiri məsələsi antik dövrlərdən bəri alim və mütəfəkkirlərin diqqətini cəlb etmiş, qədim yunan filosoflarından tutmuş Orta əsrlərin qüdrətli söz sahibləri, şair və yazıçılarına qədər bir çox görkəmli şəxsiyyətlər həmin məsələdən bu və ya digər dərəcədə bəhs etmişlər.

Azərbaycan xalqının şeirə, poeziyaya və musiqiyə qiymət verməsi, başqa sözlə desək, xalqın şairanə ruha və qəlbə malik olması nəticəsində onun bir çox nümayəndələri Orta əsrlərdən başlayaraq günümüzə qədər poeziya və musiqinin qarşılıqlı əlaqəsindən bəhs etmiş və bu mövzuya qiymətli əsərlər həsr etmişlər.

Azərbaycan klassik poeziyası və musiqisinin dərin bilicisi professor Arif Məmmədov da sözügedən mövzunun əhəmiyyətini və onun aktuallığını nəzərə alaraq "Azərbaycan poeziyasının musiqi ilə qarşılıqlı əlaqəsi" adlı monoqrafiyasında problemin hərtərəfli həllinə çalışmışdır. Əsərin birinci fəslində şeir və musiqi sənətinin yaxınlığı məsələsini geniş şəkildə təhlil edən müəllif monoqrafiyanın müvafiq fəsil və bölmələrində Azərbaycan xalq şeiri və musiqisinin qarşılıqlı əlaqəsindən bəhs edir, aşıq sənətinin spesifik xüsusiyyətlərini araşdırır və nəhayət "Kitabi-Dədə Qorqud" dastanının musiqi ilə əlaqəsi məsələsinə aydınlıq gətirir.

Klassik ədəbi və musiqi irsimizdən bəhs edən müəllif Şərqin böyük dahilərindən Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Seyid Əzim Şirvani və digərlərinin ədəbi irsini araşdırır, onların musiqi ilə bağlı fikirlərini diqqətə çatdırır. O, din və musiqi mövzusunu təhlil edərək musiqinin mahiyyətini dərk etməyərək onu dini düşüncəyə və ilahi əmrlərə yad bir ünsür kimi qiymətləndirdikləri üçün haqlı olaraq bəzi din xadimlərini tənqid edir.

Yeri gəlmişkən, vurğulamaq istəyirik ki, islam dini heç zaman poeziya və musiqiyə qarşı çıxmamış, sözə və pak mənəvi hisslərə böyük önəm verən bu din gözəl şeirlərə və musiqiyə xüsusi yer ayırmışdır. Günümüzdə bir çox müsəlman ölkələrində sübh, zöhr, əsr, məğrib və işa namazlarına çağırış üçün oxunan azanların ayrı-ayrı muğamlar üzərində səsləndirilməsi buna bariz nümunə ola bilər.

- Burada görkəmli ədib və mütəfəkkirimiz Mir Mövsün Nəvvabın musiqiyə həsr etdiyi "Vüzuhul Ərqam" əsərini xatırlamaq yerinə düşdü. Əsərin müəllifi bəzi mürtəce din xadimlərinin əsassız tənqid və hücumlarına məruz qaldığı zaman kitabını Zaqafqaziya Şeyxülislamı Ayətullah Üzma Fazil İrəvaniyə göndərmiş və onun əsərlə bağlı rəyini öyrənmək istəmişdir. Fazil İrəvani əsəri oxuyaraq, yüksək qiymətləndirmiş və ona müsbət rəy verərək çap olunmasını məsləhət bilmişdir.

Arif Məmmədov əsərin "XX əsr Azərbaycan şeiri və musiqimiz" adlı fəslində "Mirzə Ələkbər Sabir şeirinin musiqiliyi və şairin musiqiyə münasibəti", "Cəfər Cabbarlının musiqi aləmi" və "Səməd Vurğun və musiqinin bəzi məsələləri" mövzularını təhlil edərək onların poeziya nümunələrindən maraqlı və tutarlı dəlillər gətirir.

Həm poeziyanın, həm də musiqinin xalqın və onun ayrı-ayrı nümayəndələrinin düşüncə tərzinin məhsulu olduğunu vurğulayan müəllif xalq müğənnilərinin şeir və musiqimizin təbliğindəki rolunu yüksək qiymətləndirir.

Qeyd etmək lazımdır ki, poeziya və musiqimiz özünün çoxəsrlik tarixi boyu müxtəlif mərhələlərdən keçmiş, hər iki sənət nümunəsi müəyyən təsirlərə məruz qalmış, xüsusilə də muğam sənətimizə qarşı əsassız kampaniyalar aparmışdır. Belə məqamlarda xalqımızın adət-ənənələrini, onun milli ruhunu, folklorunu dərindən bilən bir çox ziyalılarımız milli-mənəvi dəyərlərimizin, o cümlədən muğamlarımızın müdafiəsinə qalxmış, Mikayıl Müşfiq, S.Vurğun, B.Vahabzadə və digər şairlərimiz tara, muğamata həsr etdikləri gözəl poeziya nümunələri ilə xalqın minillik yadigarı olan muğam sənətini bu kimi hücumlardan qorumağa çalışmışlar.




Respublikamız müstəqillik qazandıqdan sonra xalqımızın öz soy-kökünə qayıtması, milli-mənəvi, dini-tarixi dəyərlərinə sahib çıxması nəticəsində klassik poeziya və musiqiyə münasibət dəyişmiş, başqa sözlə desək, xalqımız əcdadları tərəfindən yaradılmış mənəvi irsinə sahib çıxmışdır.

Qeyd etmək lazımdır ki, ölkə rəhbərliyinin apardığı uğurlu siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanmağa nail olmuşuq.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti hörmətli Mehriban xanım Əliyevanın bu sahədəki xidmətləri xüsusilə qeyd edilməlidir. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə milli-mənəvi dəyərlərin bərpası, qorunması və inkişaf etdirilməsi ilə bağlı ciddi layihələr həyata keçirilir, xalqımızın milli təfəkkürünün çiçəklənməsi uğrunda cürətli addımlar atılır. Respublikamızda mütəmadi şəkildə təşkil olunan "Muğam müsabiqələri" deyilənlərə bariz misal ola bilər.

Xalqın öz milli-mənəvi kökünü, folklorunu, klassik poeziyasını və musiqisini daha dərindən öyrənməyə səy göstərdiyi belə bir dövrdə A.Məmmədovun "Azərbaycan poeziyasının musiqi ilə qarşılıqlı əlaqəsi" mövzusunda monoqrafiyasının nəşr edilməsi çox aktual və əhəmiyyətli hesab olunmalıdır. Zənnimizcə, bu əsər Azərbaycan poeziyası ilə musiqisinin qarşılıqlı əlaqəsi, poeziya və musiqi tariximizin öyrənilməsində çox faydalı ola bilər.

**Vasim MƏMMƏDƏLİYEV,**
**akademik,**
**Nəsrulla MƏMMƏDOV,**
**professor.**

Respublika.- 2019.- 25 iyul.- S.6.